AZƏRBAYCAN ORDUSU
7
4 may 2019-cu il

# Milli Qəhrəman Albert Aqarunovun anım tədbiri keçirildi

*Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş anım tədbiri Müdafiə, Mədəniyyət nazirliklərinin, Veteran Tankçılar Birliyinin, Dağ Yəhudiləri Dini İcmasının birgə təşkilatçılığı ilə reallaşdı.*

Tədbir iştirakçıları Beynəlxalq Muğam Mərkəzinin foyesində "Qarabağa qayıdış ümidi ilə" adlı rəsm sərgisi ilə tanış oldular.

Hərbi orkestrin müşayiəti ilə Dövlət himni səsləndirildikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Anım mərasimində açılış nitqi söyləyən Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov torpaqlarımızın azadlığı uğrunda canından keçən Albert kimi oğulların adının xalqımızın qəlbində əbədi yaşayacağını və onların adlarının əbədiləşdirilməsi istiqamətində daim mühüm addımlar atılacağını bildirdi.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Aydın Əyyubov çıxışında Azərbaycan vətəndaşlarının, gənclərinin Milli Qəhrəman Albert Aqarunovun igidliyinə hörmət əlamətindən, eyni zamanda, xatirəsinin daim yad edilməsindən, ona və ailəsinə dərin ehtiramın göstərildiyindən bəhs etdi. "Tankçı qəhrəman Albert Aqarunov xalqımızın sevgisini, rəğbətini və dərin hörmətini öz vətənpərvərliyi, cəsarəti, qorxmazlığı, yaşadığı Vətəninə sədaqəti, sadəliyi, təvazökarlığı və Azərbaycan xalqına səmimi sevgisi ilə qazanıb. Milli Qəhrəman Albert Aqarunov nümunəsi gənclərimizin mənəvi tərbiyəsində böyük iz buraxıb. Onun göstərdiyi qəhrəmanlıq, cəsurluq və rəşadət nümunələri bu gün də dillərdə əzbərdir. Xalqımız şəhid qəhrəmanının xatirəsini qəlbində daim yaşadır."

Çıxışında bu gün Vətən oğullarının düşmən işğalında olan torpaqlarımızın azad edilməsi naminə orduda böyük həvəslə və qürur hissi ilə xidmət etdiyini deyən zabit möhtərəm Prezidentimizin diqqəti sayəsində şücaətlər göstərmiş, düşmənlə mübarizədə canını fəda etmiş şəhidlərimizin xatirəsinin həmişə əziz tutulduğunu, onların adlarının əbədiləşdirilməsi, yüksək dövlət mükafatları ilə təltif olunması, ailələri ilə görüşlər keçirilməsini, istək və arzularının reallaşdırılması istiqamətində böyük işlərin görülmesini



düyünü də qeyd etdi.

Albert Aqarunovun komandiri Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov qəhrəmanın keçdiyi döyüş yolundan, xalqımıza, Azərbaycan torpağına olan sevgisindən danışdı. Onunla bağlı xatirələrindən söz açdı.

Hər il Albertin ad günü və şəhid olduğu tarixlərdə Azərbaycana gəldiyini deyən qəhrəmanın ailə üzvü Rantiq Aqarunov qardaşının burada xatirəsinin daima əziz tutulduğunu və onun adının əbədiləşdirilməsini hər zaman diqqətdə saxlayan Azərbaycan xalqına, ölkəmizin Prezidentinə minnətdarlığını ifadə etdi.

Qəhrəmanın xatirə tədbirində çıxış edənlər - Millət vəkili Yevda Abramov, İsrailin Azərbaycandakı səfiri Dan Stav, Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və digər qonaqlar İsrail-Azərbaycan əlaqələrindən, xalqlarımızın tarixi dostluğundan danışaraq Qarabağ, Şuşa uğrunda şəhid olan Albert Aqarunovun qısa, lakin şərəfli ömür yolunun gənc nəslə hər zaman örnək olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırdılar.

Sonra Milli Qəhrəman A.Aqarunova həsr olunmuş sənədli film nümayiş olundu.

Xatirə tədbiri H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və Şuşa şəhər Mədəniyyət Mərkəzinin "Şuşanın dağları" ansamblının ifasında vətənpərvərlik mahnıları ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**